***Prezident İlham Əliyevin Cəbrayılın işğaldan azad olunmasının ildönümündə rayon ictimaiyyətinin nümayəndələri ilə keçirdiyi görüşdə iştirak etmiş yazıçı Elçin Hüseynbəyli doğulub-böyüdüyü doğma torpaqda gördükləri və keçirdiyi duyğularla bağlı qəzetimizə açıqlamasında dedi:***

# Bu gün Araz qırağında tamam yeni bir Cəbrayıl dikəlir

– Ötən il Cəbrayılın işğaldan azad edilməsini bir qədər əvvəl qeyri-rəsmi mənbələrdən almışdıq. Daha sonra dedilər ki, Prezident İlham Əliyevin Azərbaycan Dövlət Televiziyası vasitəsilə xalqa növbəti açıqlaması olacaq. Onda şəksiz güman etdik ki, budəfəki şad xəbər Cəbrayılla bağlı olacaq. Dopğrudan da, Ali Baş Komandan həmin müraciətində xalqımızı Cəbrayılın işğaldan azad olunması xəbəri ilə müjdələdi. O vaxt mən İctimai Televiziyada canlı bağlantıda bildirdim ki, həm sevincli, həm də kədərli gündür. Ona görə kədərlidir ki, cavan oğlanlarımız şəhid, qazi oldular. Qürurlu, sevincli gündür ki, torpaqlarımız işğaldan azad olundu.

Bir ildən sonra, nəhayət, biz çox yığcam bir heyətlə o müqəddəs torpaqlara gedə bildik. İnana bilmirdik ki, biz yenidən Cəbrayıldaydıq. Cənab Prezident də ora gəlmişdi və onun bizimlə çox səmimi görüşü oldu. Mərasimdə Cəbrayılın baş planını bizə təqdim etdirdilər. Eyni zamanda, həmin gün dövlət başçısı bir neçə iqtisadi, sosial obyektin və memorial kompleksin təməlini qoydu.

Biz öz gözümüzlə görüb yəqin etdik ki, Cəbrayılda çox böyük işlər görülür. Erməni vandallarının yaratdıqları xarabalıqların yerində, Araz qırağında tamam yeni bir Cəbrayıl dikəlir. İndi artıq rahatıq. Cəbrayıl ağrısı ötən illər ərzində həmişə ürəyimizi göynətdi, həsrətimizə od vurdu. Lakin doğma yerlərə qayıdacağımıza inamımızı itirmədik. Adi vətəndaşdan ölkə rəhbərinədək hamı bu ağrı ilə yaşayıb, ona çarə etməyi bir nömrəli iş saydı.

Mən yazılarımda bu inama arxalanmışam, dəfələrlə rayonun hansı vəziyyətdə, dözülməz olmasından yazmışam. Mən işğaldan sonra Cəbrayılda olmasam da ATƏT-in xəttiylə 2001-ci ildə İrəvandan keçməklə Laçın və Şuşaya getmişdim. Onda gördüm ki, Laçının kəndləri necə yox edilib. Hər şey darmadağın olmuşdu. Bunu görəndə təsəvvür



etdim ki, erməni vandalları Cəbrayılda və başqa yerlərdə nələr ediblər.

Yazıçı Elçin Hüseynbəyli açıqlamasının davamında bildirdi ki, artıq torpaqlarımız geri alınıb. Biz indi doğulub-böyüdüyümüz, 27 il ayrı düşdüyümüz Cəbrayıla 5 il əvvəl azad edilmiş Cocuq Mərcanlıdan boylana-boylana baxmırıq:

– Bu gün artıq canımızda sonsuz bir rahatlıq hiss edirik. Çünki igid oğullarımızın qanı bahasına azad edilmiş, lakin başdan-başa xaraba qoyulmuş o yerlərimizdə çox sürətli təmir-bərpa işləri gedir. Prezident İlham Əliyev bizə bu haqda mötəbər məlumat verdi. Bildirildi ki, qardaş Türkiyə, qonşu Rusiya, uzaq İngiltərə kimi imkanlı ölkələr bizim ərazilərə investisiya yatırmaq fikrindədirlər.

Mən bütün ağrı-acılarımızı unudacağımız gələcəyə inanıram. Allah bizi bu günə və xoş sabaha canları bahasına qovuşduran şəhidlərimizi rəhmət eləsin. Tanrı Müzəffər Ali Baş Komandanımızı, qalib əsgərlərimizi, müqəddəs Qarabağ savaşında dəmir yumruğa çevrilmiş xalqımızı qorusun!

İnşallah, biz bir də bu əzab-əziyyəti yaşamarıq, çünki başımız daşdan-daşa dəydi. Kimin-kim olduğunu çox gözəl bildik. Daim ayıq-sayıq olmalıyıq, çünki düşmən heç vaxt yatmır. Ona görə biz də yatmalı deylik.

***Hazırladı: R.TAHİR, "Xalq qəzeti"***